TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
______________ E.M.Ağayev
"08" noyabr 2018-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROPOLİS TİNKTURASI**
PROPOLIS TINCTURE

**Tərkibi**
*Təsiredici maddə:* 1 flakonda 1:10 nisbətində 25 ml propolis tinkturası (ekstragent-etanol 80%) vardır.
*Köməkçi maddələr:* ekstragentdən başqa digər maddələr yoxdur.

**Təsviri**
Sarımtıl-qəhvəyi rəngdən qırmızı-qəhvəyi rəngə çalan xüsusi qoxulu məhluldur. Saxlanma zamanı qalıq maddənin çökməsi mümkündür.

**Farmakoterapevtik qrupu**
Yaralar və xoralı zədələnmələr üçün vasitə. Yaranın sağalmasını təmin edən preparatlar.
**ATC kodu:** D03AX.

**Farmakoloji xüsusiyyətləri**
Arıların həyat fəaliyyətinin məhsulu-propolis (arı yapışqanı) aşağıdakı biogen maddələrdən ibarətdir: darçın turşusunun törəmələri olan efir yağları, qətran qarışığı, mum, flavonoidlər, flavinlər. Mikrobəleyhinə, iltihabəleyhinə aktivlik göstərir, regenerasiya proseslərini sürətləndirir (zədələnmiş toxumaların bərpası ilə).

**İstifadəsinə göstərişlər**
Mikrotravmalar və dərinin, selikli qişaların səthi zədələnmələri, otit, faringit, tonzillit, haymorit, parodontit.

**Əks göstərişlər**
Propolisə qarşı yüksək həssaslıq və ya fərdi dözümsüzlük (xüsusən qaraciyər və ya böyrək xəstəlikləri olan şəxslərdə), ekzema, allergik reaksiyalar (xüsusən arıçılıq məhsullarına qarşı), dəri və selikli qişaların zədələnmiş hissələrindən qanaxmalar.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Preparatın qəbulundan öncə həkimlə məsləhətləşmək lazımdır.
Preparatın qəbulu zamanı ağırlaşmalar ola bilər, buna görə də pasiyenti bu təzahürlərin olması haqqında xəbərdar etmək lazımdır. Propolisə dözümsüzlük simptomları onun qəbulundan dərhal sonra və ya bir neçə saat və hətta bir neçə gündən sonra da üzə çıxa bilər. Bəzi pasientlərdə bu təzahürlər, yalnız təkrar müalicə kursunun aparılması zamanı üzə çıxır.
Preparatın qəbulundan öncə ilk dəfə ona qarşı dözümlülüyə görə sınaq aparmaq lazımdır: preparatı pambıq çubuğu ilə bazunun dərisinə va ya damağın selikli qişasına yeritmək və 30

dəqiqə ərzində müşahidə etmək lazımdır. Aydın görünən hiperemiya, güclü dəri yandırması və ya suluq yaranarsapreparatın qəbulu əks göstərişdir. Dözümlülüyə qoyulan sınaq müsbətdirsə va ya preparatın qəbulu zamanı dözümsüzlük yaranarsa, onun qəbulunu dərhal dayandırmaq və antihistamin vasitələr təyin etmək lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Digər antiseptik vasitələr və ya arıçılıq məhsulları ilə eyni vaxtda qəbul etmək məsləhət görülmür. Digər dərman vasitələri ilə eyni vaxtda qəbul etmək lazım gələrsə, həkimlə məsləhətləşmək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatın istifadəsi məsləhət görülmür.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Təsir etmir.

**İstifadə qaydası və dozası**
Propolis tinkturasını böyüklərə və 3 yaşdan böyük uşaqlara yerli olaraq applikasiyalar, qarqara, yuma, eləcə də inhalyasiya şəklində təyin etmək lazımdır. Mikrotravmalar və dərinin irinli xəstəlikləri zamanı propolis tinkturasını tamponla zədələnmiş hissələrə sutkada 1-3 dəfə yeritmək lazımdır. Xarici irinli otitin müalicəsi zamanı eşitmə yolunun təmizlənməsindən sonra propolis tinkturası ilə isladılmış tamponu qulağa yeritmək (sutkada 2-3 dəfə 1-2 dəqiqəyə) və ya propolis tinkturasını sutkada 3-4 dəfə hər dəfə 1-2 damcı qulağa damızdırmaq lazımdır. Xroniki tonzillit, faringit zamanı selikli qişanı 8-15 gün ərzində sutkada 1-2 dəfə yağlamaq lazımdır. Bundan başqa, tonzillit zamanı propolis tikturasını 1:20 nisbətində inhalyasion spirtli-sulu məhlulun hazırlanması üçün istifadə etmək olar.
Sutkada 1-2 inhalyasiya aparmaq lazımdır, müalicı kursu 7-10 gündür. Xroniki haymorit zamanı 1:10 nisbətində propolis tinkturası və 0,9%-li natrium xloriddən hazırlanmış məhlul ilə 2 həftə ərzində sutkada 2 dəfə olmaqla haymor boşluğunu yumaq lazımdır. Parodontoz zamanı propolis tinkturasını turundalarla 5 dəqiqə ərzində parodontal ciblərə yeritmək lazımdır. Ağız boşluğunun selikli qişasının zədələnmələri və səthi eroziyalar zamanı qarqara üçün 1/2 stəkan isti suda hazırlanmış 15 ml propolis tinkturasını 3-4 gün ərzində sutkada 4-5 dəfə istifadə etmək lazımdır. Müalicə kursunun müddətini həkim fərdi olaraq təyin edir.

**Əlavə təsirləri**
Preparat adi terapevtik dozalarda toksik deyil və orqanizm tərəfindən yaxşı qəbul edilir. Əlavə reaksiyalar çox nadir hallarda yaranır.
Ola biləcək əlavə reaksiyalar:
-*dəri və dərialtı toxuma* :övrə, dərinin lokal qaşınması, lokal ödem, dərinin qızarması, vezikulyar səpgilər,dərinin quruluğu və çartları (xüsusən barmaqlar və dərinin preparatla kontaktda olan digər hissələri).
*Mərkəzi sinir sistemi tərəfindən baş verən pozulmalar:* başgicəllənmə.
*İmmun sistem tərəfindən baş verən pozulmalar:* bədən temperaturunun yüksəlməsi.
*Tənəffüs sistemi tərəfindən baş verən pozulmalar:* təngnəfəslik.
Yerli reaksiyalar, o cümlədən, ağızda yanğı, quruluq ola bilər.
Hər hansı arzuolunmaz reaksiyaların yaranması zamanı preparataın qəbulunu dayandırmaq və mütləq həkimə müraciət etmək lazımdır.

**Doza həddinin aşılması**
*Simptomları*
İştahanın itməsi, orqanizmin ümumi tonusunun enməsi, əzginlik, dəri səpgilərinin yaranması.

*Müalicəsi*
Antihistamin preparatlarla müalicə.

**Buraxılış forması**
25 ml məhlul, damcıladıcısı olan flakonda.

**Saxlanma şəraiti**
25° C-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Ternofarm" MMC.

**Ünvan**
"Ternofarm" MMC.
Ukrayna,46010,Ternopol ş., Fabriçnaya k. 4.
Tel.:/Faks: +38 (0352)521-444.
www.ternopharm.com.ua